

# Türk dünyasının söz ustadı

## TÜRKSOY 2019-cu ili "Nəsimini anma ili" elan edib

İmadəddin Nəsiminin 650 illik yubileyi və 2019-cu ilin "Nəsimi ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən, böyük mütəfəkkir şairə həsr olunmuş tədbirlər ölkəmizin hüdudlarından kənarda da keçirilir. 2019-cu il həm də Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY tərəfindən dahi Azərbaycan şairinin xatirəsinə "Nəsimini anma ili" elan edilib.



Martın 6-da Türkiyənin paytaxtı Ankarada Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, TÜRKSOY təşkilatı və Azərbaycan Milli Kitabxanasının birgə təşkilatçılığı ilə dahi şairin xatirə ilinin açılış mərasimi oldu.

TÜRKSOY-un qərargahında gerçəkləşən tədbirdə qurumun baş katibi Düsen Kaseinov, Türkiyə Prezidentinin baş müşaviri Yalçın Topçu, Azərbaycanın mədəniyyət naziri Əbülfəs Qarayev, Türkiyənin mədəniyyət və turizm nazirinin müavini Əhməd Haluk Dursun, iki ölkənin elm, ədəbiyyat, mədəniyyət xadimləri iştirak edirdi.

Tədbir iştirakçıları əvvəlcə İmadəddin Nəsiminin yaradıcılığına həsr edilmiş kitab sərgisi ilə tanış oldular.

Azərbaycan Milli Kitabxanasının direktoru Kərim Tahirov Nəsiminin XV əsrə aid əlyazmalarının surətləri, dahi şairin 1844 və 1881-ci illərdə Türkiyədə ilk dəfə çap edilən kitabları, 1926-cı ildə Bakıda nəşr edilmiş ilk kitabı, Nəsiminin dünya xalqlarının dillərinə tərcümə olunaraq müxtəlif ölkələrdə çap olunmuş əsərləri, eləcə də Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə nəfis şəkildə buraxılmış ikicildliyi və digər kitablar barədə məlumat verdi.

Mərasimdə açılış nitqi ilə çıxış edən TÜRKSOY-un baş katibi Düsen Kaseinov qonaqları salamlayaraq bildirdi ki, bu gün bizim üçün ikiqat bayramdır: "Həm böyük Nəsiminin 650 illik yubileyini qeyd edirik, həm də dostlarla bir aradayıq". Baş katib bildirdi ki, TÜRKSOY-un xatirə ili layihəsinin məqsədi bu türk dünyası öncüllərini daha yaxından tanımaq və tanıtmaqdır.

Nəsimi yaradıcılığından bəhs edən D.Kaseinov böyük mütəfəkkirin Azərbaycanın ədəbi və mədəni irsində özəl bir yerə sahib olduğunu dedi.

Türkiyə Prezidentinin baş müşaviri Yalçın Topçu doğumunun 650 illiyi qeyd edilən Nəsiminin türk dünyasının böyük şairi olduğunu vurğuladı.

Mədəniyyət naziri Əbülfəs Qarayev 2019-cu ilin "Nəsimini anma ili" elan olunmasına görə TÜRKSOY təşkilatına və baş katib Düsen Kaseinova minnətdarlığını bildirdi: "Belə tədbirlər uzun müddət biri-birindən uzaq düşmüş türkdilli xalqları daha da yaxınlaşdırır, onların mədəniyyətini, ədəbiyyatını və adət-ənənələrini daha da doğmalaşdırır. Hər dəfə Bakıda, Ankarada, İstanbulda və digər türkdilli ölkələrdə belə tədbirlərdə iştirak etməklə ədəbiyyatlarımızın, mədəniyyətlərimizin qarşılıqlı zənginləşməsinə zəmin yaratmış oluruq".



Nəsiminin yaradıcılığından bəhs edən nazir bildirdi ki, mütəfəkkir şairin şeirləri, əlyazma divanları hələ sağlığında Yaxın Şərqdə və Orta Asiyada dillər əzbəri olub. Nəsiminin yaradıcılığı və şəxsiyyəti Azərbaycanda çox yüksək qiymətləndirilir və onun doğma xalqına yenidən qayıdışı Azərbaycan xalqının böyük oğlu, ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. 1970-ci illərdə ulu öndər Heydər Əliyev böyük Nəsiminin 600 illik yubileyinin ilk dəfə dövlət səviyyəsində qeyd olunmasına, onun UNESCO-da da layiqincə keçirilməsinə nail olub.

Diqqətə çatdırıldı ki, Azərbaycan mədəniyyətinə, milli-mənəvi dəyərlərimizə böyük önəm verən Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə dahi şairin əsərləri böyük tirajla və nəfis tərtibatla çap olunub. Dövlət başçısı Nəsiminin 650 illik yubileyinin dövlət səviyyəsində qeyd olunması, 2019-cu ilin Azərbaycanda "Nəsimi ili" elan edilməsi barədə tarixi sərəncamlar imzalayıb. Nazir həmçinin belə tədbirlərə ev sahibliyi etdiyinə görə TÜRKSOY-a minnətdarlığını bildirdi: "Bu binada çox dəyərli tədbirlər keçirmişik. TÜRKSOY-un qərargahı türk mədəniyyətinin bir mərkəzinə çevrilib, böyük mədəniyyət və incəsənət xəzinəsini birləşdirir".

Türkiyənin mədəniyyət və turizm nazirinin müavini Əhməd Haluk Dursun çıxış edərək Azərbaycan və türkdilli dövlətlər arasında qarşılıqlı ədəbi, mədəni əlaqələrdən, həmçinin Nəsiminin zəngin yaradıcılığı haqqında danışdı.

Tədbirin panel hissəsində Azərbaycanda Atatürk Mərkəzinin rəhbəri, akademik Nizami Cəfərov, Türk Şurası Ağsaqqallar Məclisinin üzvü, Türkiyə Böyük Millət Məclisinin sabiq deputatı, professor Mustafa İsen, professor Əhməd Bican Ercilasun Nəsiminin həyat və yaradıcılığı haqqında məruzələrlə çıxış etdilər.

Akademik Nizami Cəfərov bildirdi ki, Azərbaycan, fars və ərəb dillərində çoxsaylı əsərlərin müəllifi olan Nəsimi xüsusilə Azərbaycan poeziyası və ədəbi dilinin inkişafında əvəzsiz xidmətlər göstərib.

Professor Əhməd Bican Ercilasun Azərbaycanda çəkilən "Nəsimi" filmindən (1973) danışdı, ekran əsərində peşəkar aktyor oyununu diqqətə çatdırdı, hər kəsə bu filmə baxmağı tövsiyə etdi.

Tədbirin bədii hissəsində Qırğızıstanın Xalq şairi Kojogeldi Kuluyev və türkiyəli şairə İlter Yeşilay Nəsiminin şeirlərindən nümunələr söylədilər. Azərbaycanın Əməkdar artisti Feyruz Səxavət Nəsiminin qəzəllərini muğam üstə ifa etdi, Qazaxıstan əsilli aşıq Savbir Quseynov isə Nəsiminin qəzəllərini saz ilə səsləndirdi.

Həmin gün axşam "Nəsimi ili"nin açılış mərasimi Türkiyə Prezidenti Administrasiyasının Simfonik Orkestrinin geniş konsert proqramı ilə davam etdirildi. Əvvəlcə Xalq artisti Elnarə Kərimovanın dirijorluğu ilə TRT Xorunun ifasında Azərbaycan Bəstəkarlar İttifaqının sədri, Xalq artisti, professor, AMEA-nın müxbir üzvü, UNESCO-nun "Sülh artist"i Firəngiz Əlizadənin "Nəsimi Passion" əsərindən xor bölümləri səsləndirildi. Aşıqlar Səlahəddin Dündar və Mehmet Gökçenin sazda çıxışlarından sonra Azərbaycanın Əməkdar artisti Feyruz Səxavət Nəsiminin qəzəlləri ilə muğam parçaları ifa etdi.

***

Martın 7-də "Nəsimi ili" tədbirləri İstanbulda, Türk Ədəbiyyat Vəqfində davam etdi. Vəqfin rəhbəri Serhat Kabaklı çıxış edərək böyük söz ustadı Nəsimiyə həsr olunmuş tədbirin əhəmiyyətindən söz açdı.

TÜRKSOY-un baş katibinin müavini, professor Fırat Purtaş çıxışında Nəsimi yaradıcılığının nəinki türk dünyasında, ümumiyyətlə, bəşəriyyət üçün dərin məna kəsb etdiyini qeyd etdi. Vurğulandı ki, Nəsiminin yaradıcılığı millətlər və xalqlar arasında təmas nöqtələrindən biridir.

Mədəniyyət naziri Əbülfəs Qarayev dəyərlərimizi yaşatmaq baxımından belə layihələrin önəmini qeyd etdi, Nəsimi yaradıcılığının dünənimiz və bu günümüz üçün birləşdirici dəyər olduğunu vurğuladı.

Türkiyəli professorlar Esat Harmancı, Nusret Gedik söz sənətinin qiymətli incilərini meydana gətirmiş mütəfəkkir şairin ümumtürk ədəbiyyatına töhfələr verdiyini, Azərbaycan xalqının çoxəsrlik ənənələrə malik bədii və fəlsəfi fikrində dərin iz qoyduğunu söylədilər.

Tədbir Nəsimi yaradıcılığının fəlsəfəsinə həsr olunmuş panel iclası ilə davam etdi.

Sonra konsert proqramı təqdim edildi.